*UOT 376.*

***Aysel Əli qızı Xəlilova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*
*https://orcid.org/my-orcid?orcid=0000-0002-6348-0668*
https://doi.org/10.69682/azrt.2024.91(2).301-306

# İNKLÜZİV TƏHSİLDƏ ŞAGİRDLƏRARASI MÜNASİBƏTLƏRİN YAXŞILAŞDIRILMASI YOLLARI

***Айсель Али гызы Халилова***
*докторант по программе доктора философии*
*Бакинского Государственного Университета*

# ПУТИ УЛУЧШЕНИЯ ОТНОШЕНИЙ МЕЖДУ УЧАЩИМИСЯ В ИНКЛЮЗИВНОМ ОБРАЗОВАНИИ

***Aysel Ali Khalilova***
*doctorial student in the program of doctor of philosophy*
*of Baku State University*

# WAYS TO IMPROVE RELATIONS BETWEEN STUDENTS IN INCLUSIVE EDUCATION

**Xülasə.** Müasir dövrdə sağlamlıq imkanları məhdud olan uşaqların sayı getdikcə artır. Bu amil sağlamlıq imkanları məhdud olan uşaqların cəmiyyətə inteqrasiyasının yollarının axtarılmasını şərtləndirir. İnklüziv təhsil belə yollardan biri kimi mənalandırılır. Lakin inklüziv təhsildə sağlamlıq imkanları məhdud olan şagirdlərin digər şagirdlərlə qarşılıqlı ünsiyyətində müəyyən çətinliklər yaranır. Bunun müxtəlif səbəbləri var. Məqalədə sağlamlıq imkanları məhdud olan şagirdlərin digər şagirdlərlə münasibətində yaranan çətinliklərin və onun aradan qaldırılması yolları bu istiqamətdə tədqiqat aparan alimlərin əldə etdiyi nəticələr əsasında açıqlanır.
***Açar sözlər:*** *inklüziv təhsil, sağlamlıq imkanları məhdud olan uşaqlar, ailədaxili münasibətlər sistemi, sinifdaxili münasibətlər sistemi, əməkdaşlıq, psixoloji yardım*

**Резюме.** В современное время увеличивается количество детей с ограниченными возможностями здоровья. Этот фактор определяет поиск путей интеграции детей с ограниченными возможностями здоровья в общество. Инклюзивное образование понимается как один из таких путей. Однако в инклюзивном образовании учащиеся с ограниченными возможностями испытывают определенные трудности во взаимодействии с другими учащимися. Для этого есть разные причины. В статье на основе результатов, полученных учеными, проводящими исследования в этом направлении, объясняются трудности, возникающие во взаимоотношениях студентов с ограниченными возможностями здоровья с другими учащимися, и пути их преодоления.
***Ключевые слова:*** *инклюзивное образование, дети с ограниченными возможностями здоровья, система взаимоотношений в семье, система взаимоотношений в классе, сотрудничество, психологическая помощь*

**Summary.** In modern times, the number of children with limited health opportunities is increasing. This factor determines the search for ways to integrate children with limited health opportunities into society. Inclusive education is understood as one such way. However, in inclusive education, students with disabilities have certain difficulties in interacting with other students. There are various reasons for this. In the article, difficulties arising in the relationship of students with disabilities with other students and ways to overcome them are explained based on the results obtained by scientists conducting research in this direction.
***Key words:*** *inclusive education, children with disabilities, system of relationships within the family, system of relationships within the classroom, cooperation, psychological assistance*

Hər bir ailə uşağın həm sağlam böyüməsi, həm də tərbiyəsi qarşısında məsuliyyətə malikdir. Daha dəqiq desək, uşağın əqli, mənəvi və fiziki inkişafı ailə tərbiyəsinin əsasını təşkil edir. Amma bu vəzifələrin yerinə yetirilməsi ailənin möhkəmliyindən asılıdır. Bütün valideynlər uşaqlarının cəmiyyətin tam hüquqlu üzvü kimi ağıllı, nümunəvi və sağlam insan olmasını, karyera qazanmasını istəyirlər. Bunun üçün ailənin genetik və sosial-psixoloji sağlamlığı mühüm əhəmiyyət kəsb edir. Valideynlərin hər birinin bu və ya digər dərəcədə bu məsələdən xəbəri var. Amma, təəssüf ki, onlar heç də həmişə bu reallığı həyatlarında nəzərə ala bilmirlər. Bunun obyektiv və subyektiv səbəbləri var. Məsələn, valideynlər bir sıra hallarda daşıdıqları genetik xəstəliklərin övladına ötürməsini, uşağın tərbiyəsində məsuliyyətini dərindən dərk edə bilməməsini və s. subyektiv, ailənin sosial-iqtisadi vəziyyətini, ailədə baş verən demoqrafik prosesləri və s. (bu səbəblər çoxdur) obyektiv səbəblər kimi qeyd edə bilərik. Bu səbəblərin nəticəsi olaraq, son dövrlərdə xüsusi qayğıya ehtiyacı olan uşaqların sayı getdikcə artır, əqli inkişafın ləngiməsi, emosional zəmində özünəməxsus pozuntuların əmələ gəlməsi və s. bu kimi xəstəliklərin çoxalması müşahidə olunur. Uşağın xəstə doğulması həm valideynlərin qayğılarının artmasına, həm də uşağın həyat-fəaliyyətinin düzgün istiqamətlənməsini çətinləşdirir. Təkcə valideynlər deyil, ailənin bütün üzvləri müəyyən xəstəliklə doğulmuş uşağın daim qayğısına qalmalı və onu himayə etməli olurlar. Onu da qeyd etməliyik ki, bu hal ailədə olan digər uşaqların da inkişafına öz mənfi təsirini göstərir. Belə ailələrin daha çox sosial müdafiəyə ehtiyacı yaranır. Hazırda dünyanın bütün ölkələrində xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarını qorumaq, onları əqli, mənəvi və fiziki cəhətdən sağlam böyüməsi və cəmiyyətə inteqrasiyası sosial institutların qarşısına mühüm vəzifə kimi qoyulur. Bu istiqamətdə çoxlu sayda və müxtəlif məzmunlu işlər həyata keçirilir. Amma görülən bütün bu işlərə baxmayaraq, sağlamlıq imkanları məhdud olan uşaqların həm inkişafı, həm də cəmiyyətə inteqrasiyasını tam həyata keçirmək mümkün olmur.

Uşaqların sağlamlıq imkanları məhdud doğulmasında nikaha daxil olan gənclərin müəyyən genetik xəstəliklər daşıması halları ilə bağlı olmasına çox təsadüf olunur. Bu amilə gənclərin diqqətinin artırılması vacibdir. Bunun üçün gənclərin maarifləndirilməsi, təlim prosesində onların ailə həyatına hazırlanması mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətlərdə orta məktəblərdə müəyyən pedaqoji işlər görülür. Bundan əlavə, nikaha daxil olanlardan qan analizinin götürülməsi də gələcəkdə xəstə uşaqların doğulmasının qarşısını almağa yönəlmiş tədbirlərdən biridir. Son dövrlərdə erkən nikahlar, qohum ailələrindən olan gənclərin ailə qurması kimi məsələlər cəmiyyət səviyyəsində aktuallaşmışdır. Belə evliliklər də uşaqların xəstə doğulmasında pay sahibidirlər. Düşünürük ki, bu istiqamətdə aparılan işlərin sayını artırsaq, bu öz bəhrəsini verəcəkdir.

Sağlamlıq imkanları məhdud olan uşaqların ailə vəziyyətini təhlil edəndə ailənin sosial mühitinin mühüm rol oynadığı da açıq-aydın görünür. Təbii ki, ailədə gərginliklərin hökm sürməsində valideynlərin münasibətlərinin xarakteri önəmli əhəmiyyət daşıyır. Son dövrlərdə boşanma hallarının böyük sürətlə artdığı böyük həyəcanla vurğulanır. Boşanmaların çoxalması və ya bu zaman "xasiyyətimiz tutmadı" məzmunlu ifadələr ailənin sosial mühitinin güzgüsüdür. Valideynlərin münaqişələri ananın hamiləlik dövrünə təsadüf etdikdə uşağın ana bətnində inkişafına, uşaq anadan olduqdan sonra isə uşağın əqli, mənəvi və fiziki inkişafına öz neqativ təsirini göstərir. Təbii ki, pozitiv xarakter daşıyan münasibətlər hökm sürən ailələrdə bunun əksi müşahidə olunur. Hər bir ailədə uşağın özünəməxsus inkişaf şəraitinə malik olduğunu müşahidə edən L.S. Vıqotski bu məsələni "sosial inkişaf şəraiti" (1, s. 204) anlayışı ilə izah etmişdir.

Ailədə yaranan və uşağın inkişafında neqativ xarakter daşıyan mühiti dəyişmək zəruridir. Amma ailə münasibətlərinə yalnız maarifləndirmə vasitəsi ilə təsir etmək mümkündür. Maarifləndirmə isə heç də həmişə öz "missiyasını" lazımi səviyyədə yerinə yetirə bilmir. Belə hallarda uşağın inkişafında digər tərbiyə institutlarının – bağçanın və məktəbin rolu artır. Hətta son illərdə inkluziv təhsilin həyata keçirilməsi və günü-gündən bu təhsil müəssisələrinin sayının artması da bu məqsədə xidmət edir.

İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların digərləri ilə birlikdə təhsil almasını özündə ehtiva edir. Təhsilin bu növündə, ilk baxışdan, hər bir şeyin nizamlı olduğunu demək olar. Amma inkluziv təhsili "müəllim-şagird-valideyn" münasibətləri müstəvisində dəyərləndirəndə bu prosesdə şagirdlərarası münasibətlərin tənzimlənməsinin nə qədər çətin olduğu meydana çıxır. Belə ki, müşahidələr göstərir ki, sağlamlıq imkanları məhdud olan şagirdlərin digər şagirdlərlə ünsiyyətində müəyyən çətinliklər yaranır. Bu çətinliklər, ilk növbədə, onda olan qüsur və çatışmazlığın yaratdığı çətinliklərdir. Lakin bununla yanaşı sağlamlıq imkanları məhdud olan şagirdin ailəsində qarşılıqlı münasibətlər düzgün qurulmayıbsa onun yaşıdları ilə əlaqələr qurması daha da çətinləşir. Sağlamlıq imkanları məhdud olan şagirdlərin ailə həyatına diqqət etdikdə bu məsələ aydın olur. Bu uşaqlar yaşadıqları ailədə hər bir ailə üzvü evdə olarkən (belə ailələrdə sağlamlıq imkanları məhdud olan uşağı tək qoymamaq üçün ailə üzvləri növbə ilə ona nəzarət edirlər) uşağın qayğısını çəkir, ona xidmət edir, təhlükəsizliyini qoruyur və s. Belə münasibətə alışan şagirdin ünsiyyət bacarıqları inkişaf etmir, belə ki, ailə üzvlərinin heç biri ilə o yox, ailə üzvləri onunla ünsiyyətə girir, ona qulluq edir və s.

İnkluziv təhsildə isə o şagird kimi digər yoldaşlarından bu münasibəti görmür. Bu mənada inklüziv təhsildə yaşıdları ilə münasibətlərində onun çətinliklərinin yaranmasını təbii saya bilərik. Bu, ailənin sağlamlıq imkanları məhdud olan uşağa düzgün münasibət qura bilməməsinin nəticəsidir. Belə ailələrdə münasibətlərin düzgün qurulmaması uşağın psixi funksiyalarına təsir edir. Bu öz əksini təhsil illərində aydın göstərir. L.Ş. Əmrahlı və O.B. Əlizadənin fikrincə, ailə münaqişələri psixi funksiyalara təsir edərək, uşaqlarda "emosional neqativ emosiyalar, fobiyalar, stress vəziyyəti və onların təsiri ilə davranış pozuntusu yaranır; perseptiv gərginlik: qavrayışda çətinliklər əmələ gəlir; intellektual: məsələlərin həllində çətinliklər əmələ gəlir; iradi gərginlik: özünüidarəetmə çətinləşir; motivasiya: motivlərin mübarizəsi nəticəsində münaqişəli vəziyyət yaranır" (2, s. 116). Əlbəttə, bu problemlər inkluziv təhsil prosesində şagirdin digər yoldaşları ilə ünsiyyət qurması zamanı özünü göstərir.

Hər bir valideyn öz övladının gələcəyi haqqında düşünür, müəyyən arzular qururlar. Lakin, həyat şəraitində sağlam doğulmuş uşaqları belə istədikləri kimi deyil, gücləri özlərinin və uşağın imkanları çərçivəsində inkişaf etdirməyə çatır. Sağlamlıq imkanları məhdud olduğu hallarda isə bu proses daha da mürəkkəbləşir. Onların arzuları mövcud vəziyyətlə uyğunlaşmır. Xəstəliklə bağlı yaranmış problem isə həmin uşağa daha yaxşı qulluq etmək, ailənin maddi imkanlarını yaxşılaşdırmaq üçün valideynin daha çox işləməsini, çalışmasını tələb edir. Bu valideynin həm sosial, həm də psixoloji gərginliklərini artırır. Yaranan vəziyyətdə valideynin yaşadığı acılar onun özünün də fəaliyyətinin gərginliklər içərisində olmasını şərtləndirir. Bu hələ onun gərginliyinin son həddi deyil. Sağlamlıq imkanları məhdud olan uşaqlar ailənin sosial risk şəraitində yaşama təhlükəsini artırır. Belə ki, sağlamlıq imkanları məhdud olan uşaq bilərəkdən və ya təsadüfən hər an özünə, başqalarına, o cümlədən evə zərər vura bilər. Bu hal valideynlərin gərginliyini daha da artırır, onlar həmçinin uşağın, evin və ailənin digər üzvlərinin təhlükəsizlik və müdafiəsi haqqında daima düşünməli olurlar. Belə hallarda ailə üzvlərində müəyyən narahatlıqlar meydana gəlir. Əlbəttə müxtəlif situasiyalarda bu narahatlıqlar fərqli məzmun daşıyır. Apardığımız tədqiqatda keçirdiyimiz sorğu zamanı valideynlər ailədə aşağıdakı qorxu və narahatlıqların yarandığını bildirmişlər:

- uşağın təhlükəsiz gələcəyinə inam hissinin az olması;
- digər övladlar üçün yarana biləcək problemlərə görə gərginliklərin yaşanması;
- övladının həyatda özünə layiqli yer tuta biləcəyinə əminliyin olmaması;
- övladının tələbatlarını ödəmək üçün maddi təminatı əldə edə bilməyəcəyinə qorxu hissinin olması;
- aldığı təlimlərin mövcud vəziyyəti yaxşılaşdıra bilməyəcəyinə və ya düzgün tətbiq edə bilməyəcəyindən narahatlıq hissinin keçirilməsi;
- həm sağlamlıq imkanları məhdud olan, həm də digər uşaqların yeni zərbələr alması;
- sağlamlıq imkanları məhdud olan övladını itirməsi;
- öz həyatı üçün narahatlıq keçirməsi. Belə ki, başına bir iş gələrsə, uşağın köməksiz qalacağına;

- işsiz qalmaq, həm sağlamlıq imkanları məhdud olan, həm də digər uşaqlarının maddi ehtiyaca düçar ola biləcəyi və s.

Sağlamlıq imkanları məhdud olan uşaqların ailəsində qeyd edilənlər gərginliklər öz əksini təbii ki, ailədaxili münasibətlər sistemində tapır. Həmin gərgin emosional halətlərin (narahatlıq, təşviş, qorxu və s.) həm subyektiv, həm də obyektiv xarakter daşıdığı məlumdur. Özünə, evə ailənin digər üzvlərinə görə yaranan narahatlıqlar subyektiv, cəmiyyətlə, insanlarla, həyatda baş verən gözlənilməz hadisələr – xəstəlik, ölüm, işsizlik və obyektiv xarakter daşıyır.

Bu emosional halətlər inklüziv siniflərdə sağlamlıq imkanları məhdud olan şagirdlərin valideynləri ilə də xüsusi işlərin həyata keçirilməsini tələb edir. Belə ki, valideynlərin bu emosional halətlərini dəyişmədən, şagirdin digər şagirdlər ilə münasibətlərini yaxşılaşdırmaq mümkün deyil. Bunun üçün tədqiqatçıların gəldiyi qənaət belədir ki, bu siniflərdə bütün şagirdlərin valideynləri iş birliyinə daxil edilməlidir (3, s. 1-13). Bu maraqlı yanaşmadır. Ailəsində xəstə uşaq problemi ilə yaşamayan valideyn digər valideynin hansı hisslərlə yaşadığını bilməyə bilər. Sinif valideynlərinin birlikdə əməkdaşlıq etməsi onların çətinlikləri paylaşmasının ən yaxşı yoludur.

Təhsil İnstitutunun əməkdaşları da problemin daha səmərəli həll edilməsi istiqamətində bu yolu təqdir edərək, həmçinin sağlamlıq imkanları məhdud olan uşaqların “ailədə təlim-tərbiyə işini düzgün qurmaq üçün valideynlərin sinif rəhbəri ilə, müəllimlərlə, psixoloq və defektoloqlarla birgə işini mühüm məsələlərdən” (4, s. 52) biri kimi dəyərləndirirlər. Sağlamlıq imkanları məhdud olan valideynlərə ixtisaslaşmış müəllimlərin tövsiyələri pedaqoji cəhətdən daha faydalı ola bilər. Bu məqsədlə onlar ailə vəziyyətini öyrənərək belə valideynlər üçün müxtəlif mövzularda “mühazirələr, elmi praktik konfranslar təşkil etməyi” (4, s. 52) məsləhət görürlər. Onların təklifi ilə razılaşmamaq olmur. Mütəxəssis sözü hər bir anda hər bir valideynə ailədə uşağın sosial inkişaf şəraitinin yaxşılaşması baxımından böyük töhfələr verə bilər. Amma deyilənlər əsasında belə qənaətə gəlmək olur ki, inklüziv siniflərdə həm valideynlərin, həm də sinif rəhbərinin, müəllimlərin, psixoloqların əməkdaşlığı faydalı ola bilər. Belə ki, əməkdaşlığın arealı genişləndikcə, məsələnin həllinin daha optimal yollarının tapılması imkanları genişlənir. Təbii ki, burada əməkdaşlıq ifadəsi təsadüfən işlədilməmişdir. Əməkdaşlıq qeyd edilən subyektlərin bir-biri ilə ünsiyyətinin qarşılıqlı hörmət, bir-birinə kömək məqsədi ilə problemi müzakirə edərək, çıxış yolunun tapılmasını özündə ehtiva edir. Başqa sözlə desək, əməkdaşlıq gərgin hisslərlə yaşayan valideynlərin özlərinin də narahatlıqlarının azalmasına, onlarda uşağın gələcəyinə etibarın artmasına təkan verə bilər. Bununla yanaşı, əməkdaşlıq, sağlamlıq imkanları məhdud olan uşaqların problemlərinin həllinə daha çox insanın cəlb edilməsi cəmiyyətdə inklüzivliyin genişlənməsi imkanlarını artırır. Belə müzakirələrdə valideynlərə sosial və emosional sahələrdə dəstək vermək, uşaq və valideynlərin qarşılıqlı münasibətlərin təşkilinin daha optimal yollarının araşdırılmaq daha çox fayda verə bilir. Bununla yanaşı müəllimin valideynləri inklüziv siniflərdə təlimin təşkilinə cəlb etməsi də maraqlı pedaqoji yollardan biri kimi dəyərləndirir. Bu işlər nəticəsində empatiya yaradılanda, yəni həm müəllimin, psixoloqun, həm də bütün valideynlərin özünü sağlamlıq imkanları məhdud olan uşaqların valideynlərinin yerinə qoyması inklüziv sinifdə müsbət pedaqoji iqlimin və zəruri sosial inkişaf şəraitinin yaranmasını şərtləndirir. Bu subyektlər arasında səmimiyyət yaranır, onlar bir-birlərini dinləyir, bir-birlərinə göstərdikləri qayğını artırırlar.

Göründüyü kimi, məktəbdə sağlamlıq imkanları məhdud olan şagirdlərin valideynləri ilə pedaqoji işin aparılması müəllimlərin, sinif rəhbərlərinin və psixoloqların fəaliyyətində bir neçə istiqamətdə qura bilir. Tədqiqatçılar bu məsələyə də öz diqqət yönəltmişlər. N. Hüseynova və L. İmanova sağlamlıq imkanları məhdud olan şagirdlərin valideynləri ilə bağlı keçirilməsi məqsədəuyğun olan pedaqoji işin aşağıdakı istiqamətlərini önə çəkirlər:

- təşkilatçı (şəxs və onların valideynləri ilə məşğələlər təşkil etmək);
- maarifləndirici (ailəni tibbi-sosial yardımın alması ilə bağlı məlumatlandırmaq);
- psixo-pedaqoji və sosial-məişət adaptasiyasını həyata keçirmək, şəxs və onun ailəsinə dəstək olmaq (5, s. 226).

Göründüyü kimi, sağlamlıq imkanları məhdud olan şagirdlərin valideynləri ilə bir neçə istiqamətdə pedaqoji iş aparılması nəzərdə tutulur. Digər şagirdlərin valideynləri ilə müqayisə-

də bu valideynlərlə pedaqoji iş aparmaq daha çətindir. Əgər təşkilati və maarifləndirici işlərin keçirilməsi bütün valideynlər üçün nəzərdə tutulursa, sağlamlıq imkanları məhdud olan şagirdlərin valideynləri ilə psixo-pedaqoji işlərin həyata keçirilməsi zəruridir. Bu məsələ bu istiqamətdə tədqiqat aparan digər müəlliflər tərəfindən də xüsusi vurğulanır. Onlar psixo-pedaqoji işlərə həmçinin tibbi və sosial işləri də daxil edirlər. Qeyd olunur ki, "Sağlamlıq imkanları məhdud uşaqları olan valideynlərə göstərilən psixoloji yardımın məqsədi dəyişilmiş mikrososial faktorlar şəraitində onların adekvat sosial adaptasiyalarına yardımçı olmaqdır" (5, s. 27-230). Tədqiqatçıların belə qənaətə gəlməsi təsadüfi deyil. Belə ki, gərgin daxili emosional halətə malik olan valideyni bu halətdən çıxarmadan onların öz pedaqoji işlərində uğur qazana biləcəyini düşünmək sadəlövhlük olardı.

Valideynlərlə aparılan psixoloji işlərin zəruriliyinə xüsusi önəm verən və onu zəruri sayan bir çox tədqiqatçılar isə bunun üçün hətta xüsusi metodikalar hazırlamışlar. Bu metodikalarda ilk növbədə qrup halında nəzərdə tutulan işlərin məqsədi ayırd edilir. Məsələn, V.M. Dorinskaya bu məqsədləri aşağıdakı kimi ayırd edir:

1. Valideynin daxili gərginliyinin və diskomfortunun aradan qaldırılmaq;
2. Travmatik həyəcanları pozitiv hislərə keçirmək;
3. Anaların yaşadıqları hisslərin müzakirə etmək. Bunun nəticəsində onların nə vaxtda səhv etdiklərini və özlərini həmin situasiyalarda daha məqsədəuyğun aparmağı öyrətmək;
4. Uşağına neqativ münasibətini (aqressiya, qəzəb, əsəbilik, günahlandırma) pozitivə (sevgi, qayğı, nəvaziş və s.) çevirmək.

Təbii ki, bütün metodikalarda V.M. Dorinskayanın da təklif etdiyi metodika nöqsandan sığorta olunmayıb. Valideynlərlə fərdi işin aparılmaması bu metodikanın nöqsan tərəfidir. Belə ki, hər bir ailədə uşağın xəstəliyi, eləcə də ailədə yaranmış vəziyyət, valideynin bu vəziyyətə münasibəti fərqli xarakter daşıyır. Bu isə valideynlərlə fərdi işləri zəruri edir. Həmin problemlər həll edilmədikdə, qrupla aparılan işlərin əhəmiyyəti azalır, aydındır ki, dərin şəxsi problemlər həll olunmasa, qrupla keçirilən işlərin faydalılıq səviyyəsi yüksək ola bilməz.

Məktəb təcrübəsində valideynlərlə aparılan pedaqoji işlərin müxtəlif forma və üsullarından (ailəni ziyarət, təbliğat, valideyn iclasları, dəyirmi masada müzakirələr, rollu və işgüzar oyunlar, seminar və konfranslar, açıq qapı günləri, valideynlər üçün treninqlərdən - və s.) daha çox istifadə olunur.

M.R. Hüsnitdinova inklüziv təhsildə qarşılıqlı münasibətlərin tənzimlənməsində bir sıra metodoloji çətinliklərin olduğunu bildirir. Onun fikrincə, əvvəlcə inklüziv təhsilin nə olduğunu aydınlaşdırmaq zəruridir. Yalnız bundan sonra məktəbə sağlamlıq imkanları məhdud olan uşaqları qəbul etmək olar. İnklüziv təhsilin nə olduğunu aydınlaşdırarkən, məktəbin ümumi təhsilə və inklüzivə bölündüyü aydın olur. Sağlamlıq imkanları məhdud olan uşaqların məktəbə qəbulu isə "inteqrasiya" anlayışını aktuallaşdırır (6, s. 63-64). Burada müəllif sağlamlıq imkanları məhdud olan uşaqların məktəbə inteqrasiya imkanlarının müəyyənləşdirilməsinin zəruri olduğunu diqqət mərkəzinə gətirir. Bu zaman məktəb inklüziv təhsilin tələblərinə uyğunlaşdırılmalı, sinif otaqları bütün uşaqların ehtiyaclarını ödəməlidir.

İnkluziv təhsil müasir dövrdə dünya məktəblərində geniş tətbiq olunur. Bu sahədə artıq nəzərəçarpacaq uğurlar əldə olunub. Qardaş Türkiyədə ailələrin inklüziv təcrübələrinin öyrənilməsinə böyük yer verilir. İnkluziv sinif şagirdlərinin valideynlərinin hamısı sinif müəllimi ilə əməkdaşlıq edirlər. Müəyyən edilmişdir ki, sinifdə bütün şagirdlərin valideynlərinin inklüziv şagirdlərə müsbət yanaşdıqda bu sinifdaxili münasibətlərin yaxşılaşmasına müsbət təsir edir" (7, s. 30).

Türkiyədə inklüziv təhsil sahəsində hazırlanmış başqa bir vəsaitdə valideynlərlə pedaqoji işə xüsusi əhəmiyyət verilir. Bu istiqamətdə ailənin əlilliyə uyğunlaşma mərhələləri, valideyn-müəllim əməkdaşlığına, valideynlərin təlim prosesinə cəlb edilməsi, ailə üçün müxtəlif xidmətlərin təşkil edilməsi və sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri üçün təhsili proqramlarının hazırlanmasına önəm verilir. Eyni zamanda mənbədə qeyd olunur ki, ailə dəstəksiz və tək qaldıqda sağlamlıq imkanları məhdud uşağı olan ailə onlarla işləməyin öhdəsindən gəlmir. Məsələn, araşdırmaların birində "əqli geriliyi olan uşaqların analarının

atalar tərəfindən təhqir edilməsi ehtimalının üstünlüyü müəyyən edilmişdir" (8, s. 160). Təbii ki, valideynlər, eləcədə valideyn-uşaqlar arasında bu tip başqa hallar yox deyildir. Məktəb ailələrlə bu istiqamətdə müəyyən işlər apardıqda belə hallar aradan qaldırıla bilir. Buna görə də uşaqlara laqeyd yanaşmanın və evdə zorakılığın aradan qaldırılması məsələləri məktəbin diqqət mərkəzində olmalıdır.

Hazırda ölkəmizdə inklüziv təhsil həyata keçirilən məktəblərdə tətbiq edilən "Ailəyə dəstək" proqramına əsasən sağlamlıq imkanları məhdud olan şagirdlərin sinifdə digər şagirdlərlə münasibətlərinin tənzimlənməsinə xüsusi önəm verilir. Bu proqramda valideynlər üçün müxtəlif məzmunlu təlimlər nəzərdə tutulur. Proqram valideyn-müəllim əməkdaşlığı müstəvisində həm valideynlərin, həm də müəllimlərin fəaliyyəti şagirdlər arası münasibətlərin tənzimlənməsinə yönəlib. Valideyn-müəllim əməkdaşlığı onların bir komanda kimi bu prosesə təsir edə biləcək qüvvəyə çevrilməsinə imkan verir. Müəllimlərin valideynlərlə əməkdaşlığı nəticəsində sağlamlıq imkanları məhdud şagirdlərin digər şagirdlərlə münasibətlərinin tənzimlənməsi üçün harmonik əlaqə yaranır. Valideynləri bu prosesə cəlb etmək onların öz gücünə inandırmasına imkan verir. Valideynlər onlarla aparılan pedaqoji psixoloji işlərin nəticəsində övladlarının emosional-psixoloji vəziyyətlərində yaranan bədbinliyin, şübhəliliyin, qısqanclığın, inamsızlığın və s. qarşısını almaq yollarını öyrənirlər. Bununla yanaşı sağlamlıq imkanları məhdud olan şagirdlərin digər şagirdlər kimi qəbul etməyə kömək edən, fərdi keyfiyyətləri, neqativ yanaşmaları və s. görə yaşıdları ilə yaşadıqları gərginlikləri, münaqişələri aradan qaldırmağa dəstək olan məsələlərin həlli diqqət mərkəzində saxlanılır. Bu pedaqoji-psixoloji işlər inkluziv siniflərdə şagirdlər arası münasibətlərin düzgün tənzimlənməsində mühüm rol oynayır.

**Problemin aktuallığı**. Müasir dövrdə autizm xəstələrinin sayı getdikcə artır. Bu xəstəliyə düçar olan uşaqlar təkliyə meylli olurlar. Son dövrlərdə həyata keçirilən inklüziv təhsil bu xəstəliyə malik olan uşaqların özünəqapanmadan çıxarmağa meyllənib. Lakin təcrübə göstərir ki, inklüziv təhsildə də bu şagirdlərin yoldaşları ilə ünsiyyətə daxil olması çətin olur. Məqalədə bu çətinliyin aradan qaldırılması problemin aktuallığını təcəssüm etdirir.

**Problemin elmi yeniliyi**. Autizm xəstəliyi olan şagirdlərin yoldaşları ilə qarşılıqlı əlaqəsinin təşkili yolları məqalədə araşdırılır.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə inklüziv təhsildə autizm xəstəliyi olan şagirdlərin yoldaşları ilə qarşılıqlı münasibətlərinin təşkili yollarından məktəbdə müəllimlər istifadə edərək, öz pedaqoji fəaliyyətlərinin səmərəsini artıra bilərlər.

**Ədəbiyyat:**

1. Выготский, Л.С. Основы дефектологии / Л.С. Выготский. −СПб.: Наука, −2003. −654 с.
2. Əmrahlı, L.Ş. Uşaq autizmi: psixoloji məsələlər. / L.Ş. Əmrahlı, O.B. Əlizadə. - Bakı: MM-S, - 2018. - 127 s.
3. Karqın, T. Kaynaştırma: Tanımı, Gelişimi ve İlkeleri // −Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Özel Eğitim Dergisi, −2004. 5 (2) − s. 1-13.
4. İnklüziv siniflərdə təlimin təşkili. – Bakı: TPİİ, − 2008. – 68 s.
5. Hüseynova, N. Korreksiya işlərinin həyata keçirilməsi / N. Hüseynova, L. İmanova. – Bakı: Təhsil Nazirliyi, −2020. −296 s.
6. Хуснутдинова, М.Р. Особенности социального взаимодействия учащихся в системе инклюзивного образования // Психологическая наука и образование, −2016. № 1, − с. 62-75.
7. Karaca, M.A. Kaynaştırma eğitimi programının öğretmenlerin kaynaştırma uygulamalarındaki mesleki yeterliliklerine etkisi / M.A. Karaca. – Konya: Eğitim bilimleri enstitüsü, -2018. – 157 s.
8. Özel eğitim hizmetleri tanıtım el kitabı. – Ankara: Milli Eğitim Bakanlığı, - 2014. - 187 s.

**E-mail:** Khalilova111@gmail.com
**Redaksiyaya daxil olub:** 19.04.2024